**UOT 82.091**

# MAARİFÇİ-REALİST EPİK UŞAQ ŞEİRİMİZDƏ MƏKTƏBƏ, MAARİFƏ VƏ ELMƏ ÇAĞIRIŞ MOTİVLƏRİ

**RƏSULOVA SEVİNC HƏMİD qızı**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti, ped.f.d., doktorant*

***Açar sözlər:*** *maarifçi-realizm, uşaq ədəbiyyatı, epik şeir, məktəb, maarif, elm*

Azərbaycan uşaq ədəbiyyatının təşəkkülü və inkişafında maarifçi-realist mərhələ kimi səciyyələnən XIX-XX əsrlərin qovşağında poeziyada məktəbə, maarifə, elmə çağırış motivləri yalnız lirik əsərlərin çərçivəsi ilə məhdudlaşmır. Zikr olunan mövzu və ideyada maraqlı epik mənzumələr də ərsəyə gəlir. Həmin əsərlərdən Abbas ağa Nazir Qayıbovun “İki qardaş” [6], Cabbar Əsgərzadənin “Qızıllı yarpaq, yaxud zəkalı Ənvər” [2], Hacı Səyyah Qasımzadənin “Küçə uşaqları, yaxud yetim Həsən” [3], Əlabbas Müznibin “Uşaqlara ibrət” [5] və s. mənzum örnəkləri buna misal göstərmək mümkündür. Bu bədii nümunələr əslində janr etibarı ilə kiçik həcmli poemalardır. Həm də epik növdə olan uşaq poeziyamızın maraqlı nümunələrindəndir.

Əgər lirik şeirlərdə məktəb, maarif və elmin əhəmiyyəti tərənnüm edilir, lirik nəsihət, tərif yolu ilə oxuculara başa salınırsa, epik əsərlərdə müəyyən əhvalatın, həyat hadisəsinin fonunda təlqin edilir. Elə süjet qurulur ki, onun məzmun və siqləti göstərilən mətləb və qayənin diktəsinə yönəlmiş olur. Bunun üçün müəlliflər məqsədli olaraq nəzərdə tutulan ideyanın açılmasına xidmət edən epizod və əhvalatlardan istifadə edirlər.

Abbas ağa Nazirin 1912-ci ildə ayrıca kitabça halında nəşr etdirdiyi “İki qardaş” poemasının süjeti orijinal olsa da, əsərdə folklorun, xüsusilə də xalq nağıllarının güclü təsiri hiss olunur. Süjetin strukturu, hadisələrin motivi və dinamikası realist mövzulu xalq nağıllarını xatırladır. Əsərin poetik təhkiyə axarında da bir nağılvarilik hakimdir. Poema nağılvari bir dillə başlayır. Göstərilir ki, bir məmləkətin padşahının iki oğlu vardır. Böyük oğul Ədhəm nadan, elmdən xəbərsiz, təhsil və oxumaqla arası olmayan bir gəncdir. Elm və mərifətdən uzaq olduğu üçün onda çoxlu mənfi və qeyri-insani sifətlər formalaşmışdır. Şair onu oxuculara belə təqdim edir:

*Kəsbi-üluma yox idi rəğbəti,*
*Sənətü fəndən çox idi nifrəti.*
*Zərrəcə tutmazdı xəbər elmdən,*
*Onda bulunmazdı əsər elmdən.*
*Bilməz idi mərifətin dadını,*
*Görməmiş idi ədəbin dadını.*
*Almaz idi mütləq əlinə qələm,*
*Yazmaz idi kağıza xətti rəqəm.*
*Nə oxumaq onda kitabı vərəq,*
*Əmri-əhəm, şürb, şərabü əqəq.* [6, s.4]

Sənətkar onu nataraz, məhdud düşüncəli, dayaz fikirli, cahil, əyləncə və yüngül işlərə meyl edən, tənbəl, qumara həvəs göstərən bir gənc kimi təqdim edir. Onda olan bütün mənfi keyfiyyətlərin səbəbi isə onun elmdən və təhsildən uzaq düşməsi, məktəbə, maarifə rəğbət göstərməməsi ilə əlaqədardır.

Kiçik qardaş Ədhəm isə əksinə məktəbə, elmə sonsuz həvəs göstərən, dərslərində böyük uğur qazanan, işi-gücü kitab oxumaq, elm və sənət öyrənmək olan ağıllı bir şahzadədir. Elmə rəğbət və fəzilət onda kifayət qədər müsbət insani cəhətlər formalaşdırmışdır.

Böyük qardaş Ədhəm vəliəhddir və özünü gələcəyin hökmdarı kimi düşünür. Elm öyrəndiyi, bu yolda əzab-əziyyətə qatlaşdığı üçün kiçik qardaşı Əkrəmə tənə, rişxənd edir. Onun fikrincə:

*Elm nə lazım dəxi şahzadəyə,*
*Dərdü qəmü qüssədən azadəyə.*
*Qoy oxusun elmi vəkilü vəzir,*
*Elmi nə hacət oxuya şah, əmir.*
*Elm oxuyubdur atanız şah məgər?*
*Varmı onun şahlığına bir zərər*? [6, s.5]

Doğrudan da, ölkənin padşahı da elmsiz, maarif və mərifət işığından məhrum bir kəsdir. Elə buna görə də ədaləti, insafı, insanlığı atıb, zülm və cahillik yolunu tutmuşdur. Onun zülmkarlığını, ölkədə törətdiyi rəzalətləri, faciələri göz önünə gətirən müəllif xatırladır ki:

*Ədl ilə abad olur məmləkət,*
*Zülm ilə bərbad olur səltənət.*
*Elm ilə məmur olur dəhrlər,*
*Cəhl ilə viran olur şəhrlər.* [6, s.7]

Zülmkarlıq o həddə çatır ki, xalq dözməyib üsyan qaldırır. Padşah və onun ailə üzvlərini məmləkətdən qovur. Bu iki qardaş: Ədhəm və Əkrəm ayrı-ayrı ölkələrə gedib çıxırlar. Əkrəm öz elmi, biliyi və fərasəti sayəsində təsadüfən gedib çıxdığı məmləkətdə adi çəkməçi şagirdliyindən tacir, vəzir, nəhayət, şah mərtəbəsinə qədər yüksəlir. Böyük qardaş Ədhəm isə müxtəlif ölkələri, şəhərləri gəzir, səfil və rəzil həyat keçirir. Nəhayət, gəlib qardaşı Əkrəmin şah olduğu ölkəyə çıxır. Ehtiyac onu oğurluq etməyə, yəni cinayətə gətirib çıxarır. Onun oğru və cinayətkar olduğu xəbərini təsadüfən Əkrəm bilir. Ancaq bu adamın öz qardaşı Ədhəm olduğunu əvvəl bilmir. Sorğu-sual zamanı Ədhəmi tanıyır. Özünün də kim olduğunu ona bildirir. Ədhəm yalnız indi Əkrəmin bu mərtəbəyə elmi və biliyi sayəsində yetişdiyini, oxuyub elmli bir şəxs olmağın faydasını anlayır. Qardaşından üzr istəyir. Başına gələn çoxlu sayda fəlakət və faciələrin elmsizlik olduğunu etiraf edir və deyir:

*Elm səni şah eylədi aqibət,*
*Cəhl məni eylədi heyvan sifət.* [6, s.13]

Bu beyt əslində əsərin əsas ideyasını ifadə edir. Məsnəvi formasında qələmə alınmış poema aydın və rəvan bir poetik təhkiyə ritminə malikdir. Balaca oxucuların zövq və maraqlarını oxşayır. Əsərdə atalar sözlərindən də yerli-yerində istifadə edilir. Məsələn: "Yoldaş yoldaş ilə tən gərək, Olmasa tən araları gen gərək"; "Dağ yıxılar olsa əgər ittifaq"; "Leyk yanar qurunun oduna yaş"; "Vədə günü yoxdu əcəldən pənah" və s.

Cabbar Əsgərzadənin "Qızıllı yarpaq, yaxud zəkalı Ənvər" poemasının mövzusu yeni üsullu məktəbdə təhsil alan şagirdlərin həyatından götürülmüşdür. Əsərin əsas qəhrəmanları məktəbli oğlan Ənvər və onun şagird yoldaşlarıdır. Ənvər zirək, çalışqan, daim oxumaq barədə fikirləşən, oxumağı boş-boş gəzməkdən, oynamaqdan üstün tutan ağıllı bir məktəblidir. Onun şagird yoldaşları isə əksinə tənbəldirlər, iş-gücləri oynamaq və gəzməkdir. Müəllimin verdiyi tapşırıqları yerinə yetirmək əvəzinə ya oynayır, ya da vaxtlarını mənasız gəzintilərə həsr edirlər. Onlar Ənvəri də dərslərinə hazırlaşmaqdan çəkindirmək istəyir, oynamağa və gəzintiyə çağırırlar. Lakin Ənvər onların sözlərinə qulaq asmır. Nəticə imtahanda bəlli olur. Zəkalı Ənvər müəllimlərin qarşısında uğurla imtahan verir, "beş" qiymət alır. Müəllimlər onu tərifləyir. Onun şagird yoldaşları isə sorğu-suallara yaxşı cavab verə bilməyib xəcalət çəkirlər. Həm valideynlərinin əziyyət və xərcini puça çıxarırlar, həm də müəllimlərinin tənə və danlağına tuş gəlirlər. Özləri də mənən əziyyət çəkirlər. Bununla müəllif yaxşı oxumağın həmişə insana şərəf və ucalıq gətirdiyini uşaqlara başa salmaq istəyir.

"Qızıllı yarpaq, yaxud zəkalı Ənvər" orijinal struktur-kompozisiya quruluşuna malikdir. Əsər janr baxımından lirik-epik poemadır. Çünki burada həm lirik ovqatı ifadə edən parçalar, həm də əhvalatlar vardır. Lirik parçalar təbiət təsvirlərindən, Ənvərin və onun sinif yoldaşlarının əhvali-

ruhiyyəsini ifadə edən lirik təəssüratlardan və nəğmələrdən ibarətdir. Əsərdə dolğun, canlı təbiət təsvirləri ilə uşaqların məktəb həyatı maraqlı bir şəkildə qovuşdurulmuşdur. Bu, poemanın ruhuna bir şuxluq, nikbin ovqat, şənlik və təravət təlqin edir. Poema dolğun bir təbiət təsviri ilə başlayır:

*Sabah oldu, banladılar xoruzlar,*
*Oxudu bağçada bülbüllər, quşlar.*
*Günəş çıxdı, işıqlandı bağçalar,*
*Civildəşib uçuşdular sərçələr.*
*Çoban sürdü qoyunları otlağa,*
*Quzular mələyib dırmandı dağa.*
*Mehriban analar sevib oxşayır,*
*Bu növ ilə cocuqları oyadır.* [2, s.4]

Bu peyzaj lövhəsindən sonra ananın oğlunu oyatması ilə bağlı lirik hissə gəlir. Ana oğlunu bu cür nəvazişlə, səmimi bir poetik dillə oyadır və dərsə getməyə sövq edir:

*Sübh açılıb, can oğlum,*
*Ayıl uyğudan, oğlum!*
*Oxur quşlar, bülbüllər,*
*Açıb bağçada güllər,*
*Yaşıllaşıb sünbüllər.*
*Sübh açılıb, can oğlum,*
*Ayıl uyğudan, oğlum!*
*...Dur çayını içgilən,*
*Formaların geygilən,*
*Məktəbə tez getgilən.*
*Sübh açılıb, can oğlum,*
*Ayıl uyğudan, oğlum!*
*Oxumağa həvəs var,*
*Dərsini eylə əzbər,*
*Müəllimin inciyər ...*[2, s.5]

Göründüyü kimi, şair poemanı 11 hecalı, məsnəvi formasında qafiyələnən peyzajla başlayır. Ananın yatan oğlunu durğuzub məktəbə göndərmək istəyi ilə bağlı parçada isə 7 hecalı, nəqəratlı nəğməyə keçir. Çünki mətləbi bu cür səmimi ifadə etmək poetik cəhətdən daha təsirlidir. Bu formada ana-oğul münasibətlərini daha gözəl və təbii şəkildə təcəssüm etdirmək mümkündür.

Onu da qeyd etmək lazım gəlir ki, bu cür növbəli təsvir poemada bədii mətnin bütün kompozisiya və sisteminə aidir. Yəni sənətkar növbəli şəkildə mətnin bir hissəsini 11 hecalı məsnəvilərlə verir. Bu, əsasən, təbiət təsviri və əhvalatların söyləndiyi hissələrə aiddir. Digər hissələri isə 7 hecalı şeir parçaları ilə təqdim edir. Bu, obrazların bilik, hiss və təəssüratlarının ifadəsi zamanı özünü göstərir. Sonda isə "Ötüşək, ay quşlar, bülbüllər! Yürüşək, ay quşlar, bülbülllər!" - nəqəratı ilə müşayiət olunan 7 bəndlik 9 hecalı mahnı verilir. Uşaqların dilindən verilən bu mahnıda deyilir:

*Bilmərik yavalıq, tənbəllik,*
*Etmərik, şuluqluq, dəcəllik.*
*Məktəbdə eylərik bir şənlik.*
*Ötüşək, ay quşlar, bülbüllər!*
*Gülüşək, ay quşlar, bülbüllər!* [2, s.13]

Belə bir orijinal kompozisiya sistemi haqqında danışdığımız lirik-epik poemaya bir mükəmməllik və dolğunluq məziyyəti aşılayır. Onun sənətkarlıq baxımından da səviyyəli təsir bağışlamasını təmin edir.

H.S.Qasımzadə Səyyahın "Küçə uşaqları və yaxud yetim Həsən" poemasında üç tip obrazlar silsiləsi ilə rastlaşırıq: yetim Həsən, Uçitel və küçə uşaqları (Qulu, Topal Nəbi, Əhəd, Cəbi, Zəki,

Rəcəb, Səfər və b.). Sənətkar süjeti belə bir əhvalat üzərində qurur: On yaşlı oğlan Həsənin atası Məhərrəm vəfat edir. Yetim, kimsəsiz və ac-yalavac qalan Həsən səfil güzəran keçirir və gəzə-gəzə gəlib şəhərdə yeni üsullu məktəbin həyətinə çıxır. Məktəb uşaqları onu görüb əhvalı ilə tanış olur, bu barədə öz müəllimlərinə xəbər verirlər. Şairin "Uçitel" adı ilə təqdim etdiyi müəllim Həsəni pulsuz olaraq məktəbə qəbul edir. Həsən bir neçə ilə həmin məktəbdə təhsil alır və nəhayət, orta təhsilini tamamlayır. Daha sonra isə qoca Uçitelin maddi köməyi və himayəsi ilə ali məktəbi də bitirir. Yaxşı bir həkim olub millətinə xidmətə başlayır. Hörmət-izzət sahibinə çevrilir. Vaxtilə sözə baxmayıb dərsdən qaçan, yaxşı oxumayan küçə uşaqları isə böyüdükdən sonra kasıb, hörmətsiz, tüfeyli, cahil şəxslərə çevrilirlər. Biri iris satır, biri naxırçılıq, biri nökərçilik edir, biri qəlyan çəkib veyil-veyil gəzir və s.

Əsərdə müəllif Uçitel obrazının şəxsində mərhəmətli himayədar, vətən övladlarını sevən, onların qayğısına qalan humanist ziyalı surəti yaradır. Həsən isə ağıllı və zəkalı, elmə, maarifə rəğbət göstərən bir insan olduğundan müəlliminin etimadını doğruldur. Həm özü, həm də cəmiyyət üçün gərəkli bir şəxsə çevrilir. Həsən obrazını küçə uşaqları ilə müqayisəli şəkildə təqdim etməklə şair təhsil və elmin faydasını gənc nəslə başa salmaq məqsədi güdür.

Burada bir məsələyə də toxunmaq lazım gəlir. XX əsrin əvvəllərində ədəbi təsərrüfatımızda "böyüklər üçün" ədəbiyyatda da yetim uşaqların taleyini və həyatını əks etdirən şeirlərlə üzləşirik. H.Cavidin "Kiçik sərsəri", "Öksüz Ənvər", C.Cabbarlının "Qürub çağı bir yetim" və s. şeirləri bu qəbildəndir. Həmin poetik nümunələrdə mənzərə tamamilə kədərli və hüznlüdür. Çünki burada təsvir olunan yetim cocuqlara nə bir kömək edən, nə də iltifat göstərən vardır. Onlar bədbəxt, zavallı, kimsəsiz və carəsiz bir vəziyyətdədirlər. Taleləri, yaşayışları oxucunun qəlbini ağrıdır, məyus edir. Lakin H.S.Qasımzadənin haqqında söhbət açdığımız uşaq əsərində mənzərə bu cür qəlbi göynədən bir məcrada deyildir. Yetim Həsənin atası xəstəlikdən ölsə də, onu himayə edən tapılır. Uçitelin insanpərvərliyi və yardımı ilə Həsən oxuyub fərdi və sosial faciədən xilas olur. Beləliklə, müəllif süjetə nikbin bir ovqat aşılayır. Poemanı nikbin, əhvali-ruhiyyəni şad edən bir sonluqla yekunlaşdırır. Əlbəttə, bu uşaq əsərlərinin daha çox nikbin finalla bitirilməsi ənənəsinə uyğundur. Belə ki, uşaq yazıçıları kiçik oxucuları həyatın müəyyən kədərli, qorxulu, məyusedici hadisələri ilə tanış etsələr də, daha çox hallarda süjeti fərəhli, qəlbə ruh və sevinc verən sonluqlarla başa çatdırmağa çalışırlar. Məqsəd kiçik oxucuları məyus etməmək, onları həyatın dəhşətləri ilə qorxutmamaqdır. A.Şaiqin ilk dəfə "İkinci il" (1908) dərsliyində çap olunan "Yetim" şeirində də biz bunun şahidi oluruq.

"Küçə uşaqları və yaxud yetim Həsən" poeması müxəmməs formasında qələmə alınmışdır. Müxəmməsdəki misralarda hecaların sayı 14-dür. Əlbəttə, belə çoxhecalı misralar uşaqları yorur və onların zövqünə uyğun deyil. Bunu anlayan müəllif bütün mətn boyu misraları iki yerə bölmüş (7+7=14), daha doğrusu, bədii mətni yarımmisralar şəklində vermişdir. Bu, əsərin kiçik oxuculardan ötrü oxu və dərketmə imkanlarını xeyli asanlaşdırmışdır. Əsərin sonunda "Uşaq atalarına" sərlövhəli kiçik epiloq verilir. Müəllif burada müsəlmanların "elmü maarifi" tərk etdiklərini, geridə qalıb tənəzzülə uğradıqlarını xatırladır. Valideynləri öz övladlarını oxutmaq yolunda səy və qeyrət etməyə çağırır. Millətin aqillərinə, başbilənlərinə, imkanlılarına müraciət edərək yazır:

*Ey millətin aqilləri,*
*Ey möhtərəm əyanımız.*
*Ətfal acdır küçədə,*
*Nerdə qalıb ehsanımız?*
*Məhbusdan min qat betər*
*Ömr eyləyir nikvanımız.*
*Neyçün məkatib açmırıq,*
*Yoxmu buna imkanımız?*
*...Zillətdə bizdən başqa yox,*

*Diqqətli baxsan hər yerə.*
*...Arş, elmə doğru yol yürü*
*Basəmər ol, salam, oyan...*[3, s.14]

Ə.Müznibin "Uşaqlara ibrət" poeması 1911-ci ildə, yəni böyük satirik şairimiz M.Ə.Sabirin vəfat ediyi ildə ayrıca kitabça şəklində nəşr edilmişdir. Kitabçanın üz qabığında belə bir qeyd verilmişdir: "Sabirin yadigarına ithaf". Bu qeyddən bəlli olur ki, şair uşaqlardan ötrü qələmə aldığı bu poemanı Sabirin kiçik yaşlı oğlu Məmmədsəlimə ithaf etmişdir.

Əsərin adından da göründüyü kimi, poema ibrətamiz bir süjet üzərində qurulmuşdur. Mövzu, məzmun və ideya da ibrətamiz çalarlara malikdir. Poemanın əsas ideya xətləri bunlardır: nadinclik, biədəblik, eybəcər xarakter uşaqları pis rəftar və davranışa sövq edir; yaramaz, ləyaqətsiz davranış həm başqalarına, həm də insanın özünə ziyan gətirir; pis əməl nəticədə məyusluq, yaxşı əməl isə fərəh doğurur; yaramaz işlər görmək insanın özünə cəza və fəlakət gətirər; köhnə məktəblər (mollaxanalar) indi təlim-tərbiyə üçün yaramır; mollaxanadakı nə təlim üsulu, nə təlim vasitələri, nə də təlimçi (molla) zamanın ruhuna müvafiq deyil; əsl, mütərəqqi təhsil və tərbiyə ocağı yeni üsullu ("üsuli-cədid") məktəblərdir və s.

Göstərilən ideya və mətləbləri sübut etmək və kiçik oxuculara çatdırmaq üçün müəllif "ideyadan süjetə" prinsipi əsasında süjet qurur. Süjetdə nəzərdə tutulmuş ideyanın təlqininə xidmət edən epizodlar yaradılır və onlar üzvi şəkildə bir-biri ilə əlaqələndirilir. Sənətkar bunun üçün poemadakı hər bir epizoda ayrılıqda ad verir. Yəni süjeti epizodlar üzrə bölüşdürür. Məsələn: "Nadinclik", "Ataların balalar üçün çalışması", "Uşaqların məktəbə verilməsi", "Kənd məktəbinin faidəsizliyi", "Ana dili oxumamağın nəticəsi", "Uşaqların məktəbdən qaçması", "Həmidin qıçı sınması və Zeynalın donu cırılması", "Həmid ilə Zeynalın üsuli-cədid üzrə oxumaları" və s.

Əsərin əsas qəhrəmanları Həmid və Zeynal adlı iki oğlan uşağıdır. Onlar nadinc, dəcəl, ədəbsiz uşaqlardırlar. Cürbəcür pis işlər görür, ona-buna sataşır, ziyan vururlar. Qonum-qonşunu boğaza yığırlar. Atalarını da cana doyururlar. Axırda ataları bu qərara gəlir ki, onları mollaxanaya qoysun. Bəlkə, burada oxuyub ədəb, mərifət kəsb edələr. Amma mollaxanada xoşagəlməz, bezdirici, cansıxıcı bir mühitlə qarşılaşırlar. Molla tez-tez onların ayaqlarını falaqqaya salıb döyür, onlara öz şəxsi təsərrüfat işlərini gördürür. Molla həm də rüşvətxordur, onlardan müxtəlif hədiyyələr gətirməyi tələb edir. Bununla belə, uşaqlara heç nə öyrətmir. Öyrətdiyi yalnız "Quran"dan bəzi surələr, qiraət və Sədinin "Gülüstan"ıdır. Ancaq bu kitablar uşaqların öz dillərində olmadığından heç nə anlaya bilmirlər. Atalarının israrına baxmayaraq oraya getmirlər. Ataları indi də onları "üsuli-cədid" məktəbinə göndərir. Hər iki uşaq burada verilən təhsili, yeni üsullu maarif ocağındakı mühiti bəyənirlər. Məmnuniyyətlə burada qalıb oxuyurlar. "Üsuli-cədid" məktəbini bitirdikdən sonra ali təhsil dalınca gedir, biri oxuyub "injiner" (mühəndis), digəri isə həkim olur. Beləliklə, yeni tipli məktəb bu ədəbsiz, yaramaz əmələ malik uşaqların həm xarakterini dəyişir, həm də onları cəmiyyətdə hörmətli, nüfuzlu şəxslərə çevirir. İstər mənəvi, istərsə də maddi cəhətdən xoşbəxtliyə qovuşdurur. Bu barədə əsərdə deyilir:

*İkisi zəmanəyə dair,*
*Oxuyub elmlər olub mahir.*
*Birisi injener, birisi həkim.*
*Oldular, tapdılar nüfuzi-əzim*
*Aldılar çoxluca məvaciblər,*
*Həzz ilə sürdülər gözəl günlər.*
*Çəkməyib bir qədər iki bizar,*
*Oldular ən birinci sərvətdar.* [5, s.15]

Şair mollaxanadakı təhsil sistemilə "üsuli-cədid" məktəbindəki təhsil sistemini konkret əhvalatın, Həmid və Zeynal kimi uşaqların münasibəti fonunda müqayisə edir. Təbii ki, labüd olaraq üstünlüyü ikinciyə verir. Eyni zamanda millət balalarına məktəb və elmin əhəmiyyətini anlatmağa çalışır.

Beləliklə, XIX əsrin sonu və XX əsrin əvvəllərində poeziyada məktəbə, maarifə və elmə çağırış motivləri uşaq ədəbiyyatında aparıcı xətlərdən birini təşkil edirdi. Əlbəttə, bu zamanın aktual tələbi idi. Uşaqlar üçün şeirlər yaradan istedad sahibləri bu tələbi aydın dərk edir və ona məhsuldar şəkildə reaksiya göstərirdilər.

## ƏDƏBİYYAT


1. "Dəbistan" jur. (1906-1908)
2. Əsgərzadə C. Qızıllı yarpaq, yaxud zəkalı Ənvər. İrəvan: mətbəeyi - Kultura, 1913.
3. Qasımzadə H.S. (Səyyah). Küçə uşaqları və yaxud yetim Həsən. Bakı: "Məktəb"in elektrik mətbəəsi, 1916.
4. "Məktəb" jur. (1911-1920)
5. Müznib Ə. Uşaqlara ibrət. Bakı: Orucov qardaşları, 1911, 16 s.
6. Qayibzadə N.A. İki qardaş. Tiflis: Şirkət, 1912.



**РЕЗЮМЕ**
**МОТИВЫ ПРИЗЫВА К ОБРАЗОВАНИЮ, ШКОЛЕ И НАУКЕ В ПРОСВЕТИТЕЛЬСКОЙ РЕАЛИСТИЧЕСКОЙ ЭПИЧЕСКОЙ ДЕТСКОЙ ПОЭЗИИ**
***Расулова С. Г.***

***Ключевые слова:*** *просветительский реализм, детская литература, эпическая поэзия, школа, образование, наука.*

Вторая половина XIX начало XX века является этапом образования и начальной стадией развития азербайджанской детской литературы. В этот период было создано большое количество как лирических, так и эпических произведений для детей. Одним из основных направлений идей в этих работах является идея призыва к школе, образованию, науке.

В статье рассматриваются примеры эпической поэзии из литературных произведений, написанных на эту тему, и исследуется указанный период.



**SUMMARY**
**THE MOTIVES OF THE CALL TO SCHOOL, EDUCATION AND SCIENCE IN THE EDUCATIONAL REALISTIC EPIC CHILDREN'S POETRY**
***Rasulova S.H.***

***Key words:*** *educational-realism, children's literature, epic poetry, school, education, science*

The second half of XIX - early XX century is a stage of education and the initial stage of development of Azerbaijani children's literature. During this period, a large number of both lyrical and epic works for children were created. One of the main directions of ideas in these works is the idea of vocation of school, education, science.

In the article, we turned the works into the subject of study of examples of epic poetry for children, written on this topic, into the object of study during the specified period.



Daxilolma tarixi: İlkin variant 10.07.2019
Son variant 25.09.2019